

# 2021 Təqvim ili




## İcma əsaslı məktəbəqədər təhsil qrupları

Ölkə üzrə 55 rayon və şəhərdə 850 icma əsaslı məktəbəqədər təhsil qrupları təşkil olunub. Qruplara 16041 nəfər 3-4 yaşlı uşaq cəlb edilib. Bu, ötən ilə nisbətən 5 rayon, 350-yə yaxın qrup və 6835 nəfər uşaq artımı deməkdir.




## Məktəblilərimizin beynəlxalq uğuru

2021-ci ildə Azərbaycan məktəbliləri 15 müxtəlif beynəlxalq olimpiada və müsabiqələrdə iştirak edib. Məktəblilərimiz 6 qızıl, 16 gümüş, 33 bürünc medal olmaqla, ümumilikdə 55 medal əldə edib.




## Rəqəmsal bacarıqlar

2021-ci ildə “Rəqəmsal bacarıqlar” layihəsi ölkənin 250 məktəbinin 190 000-dən çox şagirdini əhatə edib. Bu, ötən ilə nisbətən 28 məktəb və 90 000 şagird artımı deməkdir. Layihə Bakı, Sumqayıt, Gəncə, Şəki, Şirvan, Şamaxı, Lənkəran, Biləsuvar, Mingəçevir, Xaçmaz, Yevlax, Sabirabad, Salyan, Şəmkir, Göyçay və Şabran şəhər və rayonları üzrə məktəbləri əhatə edir.




## STEAM

2021-ci ildə STEAM layihəsi 302 ümumtəhsil məktəb və 10 STEAM Mərkəzini əhatə edib. Ümumilikdə 91000-ə yaxın şagird STEAM tədrisinə cəlb edilib. Hazırda Bakı, Xırdalan, Şirvan, Quba, Gəncə, İsmayıllı və Bərdədə STEAM Mərkəzləri fəaliyyət göstərir. Sabirabad və Ağdaşda STEAM Mərkəzləri üzrə işlər başa çatıb. Bu ilin sonunadək Lənkəran STEAM Mərkəzi üzrə də aparılan işlər yekunlaşacaq.










# Yüksək texniki peşə təhsili

2021-ci ildə 6 peşə təhsil müəssisəsində yüksək texniki peşə təhsil səviyyəsi üzrə tədrisə başlanılıb. Bu peşə təhsil səviyyəsi üzrə 15 ixtisasa tələbə qəbulu aparılıb və 820 nəfər tələbə adını qazanıb.

# 7400-ə yaxın əcnəbi tələbə

2021-2022-ci tədris ili üzrə ölkəmizin ali və orta ixtisas təhsili müəssisələrində 101 ölkədən 7400-ə yaxın əcnəbi və vətəndaşlığı olmayan tələbə təhsil alır. Əcnəbi tələbələr Türkiyə, İran, Gürcüstan, Rusiya, İraq, Nigeriya, Suriya, Hindistan, Pakistan, Çin və digər ölkələri təmsil edir.







# Peşə təmayüllü siniflər

2021-ci ildə 45 yeni peşə təmayüllü sinif açılıb. Beləliklə, bu siniflərin sayı paytaxt və bölgələri əhatə etməklə 80 məktəbdə 124-ə çatdırılıb. Yeni siniflərin açılması ilə layihə minimum 2200 şagirdi əhatə edir.

# SABAH tələbəsi

2021-2022-ci tədris ili üzrə 724 tələbə 29 ixtisas üzrə SABAH tələbəsi adını qazanıb. Magistratura səviyyəsində SABAH qruplarına ilk dəfə 2021-ci ildə qəbul keçirilib və 364 nəfər SABAH magistri adını qazanıb.